Email: info@payneteasy.az
Phone: +(99450) 452-53-08
Website: www.payneteasy.az

# Şəxsi məlumatlar haqqında siyasət

**Razılıq**
Əgər siz payneteasy.az vebsaytından istifadə edirsinizsə, o zaman siz hazırkı Şəxsi məlumatlar haqqında siyasətin tətbiqinə razılıq verirsiniz (aşağıda göstərilmiş hallar istisna olmaqla).
Sizin məlumatlarınızın məxfiliyi bizim üçün çox vacibdir və biz şəxsi məlumatların mühafizəsinin əhəmiyyətli olduğunu qəbul edirik. Ona görə də, hazırkı Siyasəti hazırlamaqda məqsədimiz şəxsi məlumatlarınızın bizim tərəfimizdən necə toplanıldığı, istifadə edildiyi, bölüşüldüyü və dəyişdirdiyi barədə sizə məlumat verməkdir.

**Şəxsi məlumatların tərkibi**
Şəxsi məlumatlar – birbaşa və ya dolayı şəkildə müəyyən olan və ya müəyyənləşdirilən fiziki şəxsə (vətəndaşa) aid hər hansı informasiyadır. Bu cür məlumatlara xüsusilə aşağıdakıları aid etmək olar: ad, soyad və ata adı, doğulma tarixi və yeri, ünvan, ailə vəziyyəti, sosial və əmlak vəziyyəti haqqında məlumatlar, təhsil, peşə, gəlir haqqında məlumatlar, habelə digər informasiya.
Bizim tərəfimizdən emal edilən şəxsi məlumatlar qanunvericiliyə uyğun qaydada ciddi şəkildə qorunan məxfi informasiya hesab edilir.
Payneteasy.az vebsaytından istifadə çərçivəsində biz aşağıdakı məlumatları toplayırıq:
1. Cookies;
2. Əməliyyat Sisteminin versiyası;
3. Brauzerin versiyası;
4. Cihazın növü;
5. Brauzerin cari dili;
6. Cari vaxt zonası.

Şəxsi məlumatların emalı – avtomatlaşdırma vasitələrindən istifadə etməklə və ya bu cür vasitələrdən istifadə etmədən şəxsi məlumatlar üzərində edilən istənilən hərəkət (əməliyyat) və ya hərəkətlərin (əməliyyatların) məcmusu. Bu cür hərəkətlərə (əməliyyatlara) aşağıdakıları aid etmək olar: şəxsi məlumatların yığılması, əldə edilməsi, qeydə alınması, sistemləşdirilməsi, toplanması, saxlanılması, dəqiqləşdirilməsi (yenilənməsi, dəyişdirilməsi), çıxarılması, istifadə olunması, ötürülməsi (paylanılması, təqdim olunması, çıxış), anonimləşdirilməsi, bloklanması, silinməsi, məhv edilməsi.

**İstifadə məqsədləri**
Müştəri haqqında məlumatın toplanılması və saxlanılması aşağıda göstərilən səbəblər əsasında həyata keçirilir: eyniləşdirmə (identifikasiya) və kommunikasiya üçün; marketinq məqsədləri üçün; hazırkı Məxfilik Siyasətində göstərilmiş digər məqsədlər üçün. Hazırkı Məxfilik Siyasəti çərçivəsində Müştərinin məlumatları dedikdə aşağıdakılar nəzərdə tutulur:, şəkildə təqdim etdiyi və payneteasy.az vebsaytında yerləşən şəxsi məlumatlar (o cümlədən ad, soyad, ata adı, elektron poçt ünvanı, telefon daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq).
“Cookies” faylları istifadəçiyə imkan verir ki, payneteasy.az istifadə tarixçəsini, tənzimlənmiş parametrləri və payneteasy.az istifadə rahatlığını artıran digər məlumatları öz cihazında saxlasın.
Əməliyyat Sisteminin versiyası haqqında məlumat müştərinin istifadə etdiyi əməliyyat sisteminin versiyasının xüsusiyyətlərini nəzərə almaqla müştəriyə əks etdirilən informasiyanı texniki cəhətdən optimallaşdırmaq üçün lazımdır.
Brauzerin versiyası haqqında məlumat müştərinin istifadə etdiyi brauzer sisteminin versiyasının xüsusiyyətlərini nəzərə almaqla müştəriyə əks etdirilən informasiyanı texniki cəhətdən optimallaşdırmaq üçün lazımdır.

Cihazın növü barədə məlumat müştərinin istifadə etdiyi əməliyyat sisteminin versiyasının xüsusiyyətlərini nəzərə almaqla müştəriyə əks etdirilən informasiyanı texniki cəhətdən optimallaşdırmaq üçün lazımdır.
Vaxt zonası müştərinin yerləşdiyi vaxt zonası (saat qurşağını) nəzərə almaqla müştəriyə əks etdirilən vaxtın tənzimlənməsi üçün lazımdır.
Bundan əlavə, biz kənar xidmətlərdən (məsələn Google Analytics kimi) istifadə edə bilərik.

**Məlumatların mühafizəsi**

Biz sizin məlumatlarınızın təhlükəsiz saxlanılmasını təmin etmək üçün xüsusi tədbirlər görürük. Bu cür tədbirlər çərçivəsində sizin məlumatlarınıza icazəsiz giriş və ya onların icazəsiz açıqlanması kimi risklərin azaldılmasına yönəlmiş xüsusi proseslər və prosedurlar tətbiq olunur. İnformasiya təhlükəsizliyini təmin etmək məqsədilə tərəfimizdən zəruri təşkilati, texniki və fiziki tədbirlər görülüb.
İnformasiyanın üçüncü tərəflərə açıqlanması
Biz istifadəçilərin məlumatlarını üçüncü tərəflərə açıqlamırıq. İstifadəçi məlumatları qanunvericiliyə uyğun olaraq səlahiyyətli orqanlar tərəfindən tələb olunduqda, həmin orqanlara təqdim edilə bilər.

**Məlumatların silinməsi**

Payneteasy.az öz şəxsi məlumatlarınızın silinməsini istəyə bilərsiniz. Bu cür sorğu əsasında biz sizin haqqınızda toplanılmış şəxsi məlumatları siləcəyik və ondan sonra payneteasy.az istifadəyə zəmanət verə bilməyəcəyik.
Sizin şəxsi məlumatlarınızın silinməsi üçün info@payneteasy.az ünvanına müraciət edin.
İnformasiya və reklam xarakterli bildirişlərin alınmasından imtina.

**“Cookies” fayllarının bloklanması**

Öz brauzerinizdəki parametrlərdən istifadə etməklə “cookies” fayllarını silə və ya bloklaya bilərsiniz, lakin bundan sonra biz payneteasy.az istifadəyə zəmanət verə bilmərik.
Siz öz şəxsi məlumatlarınızın silinməsi, dəyişdirilməsi və ya təqdim olunması üçün bizə istənilən vaxt müraciət edə bilərsiniz Bunun üçün info@payneteasy.az ünvanına müvafiq qaydada müraciət edin.
Biz əsassız olaraq təkrarlanan və ya sistematik olan, qeyri-proporsional texniki səylər tələb edən (məsələn, ehtiyat məlumat daşıyıcılarında saxlanılan məlumatlarla bağlı sorğular), digər istifadəçilərin məxfiliyini təhlükə altında qoyan sorğuların icrasından imtina edə bilərik. İstənilən halda, biz məlumatları silərkən və ya dəyişdirərkən, bu xidməti ödənişsiz (pulsuz) yerinə yetiririk (qeyri-proporsional səylər tələb edən hallar istisna olmaqla).
Nəzərə almaq lazımdır ki, şəxsi hesab edilməyən məlumatlar hətta siz payneteasy.az istifadəni dayandırdığınızda və ya şəxsi məlumatların silinməsini istədiyinizdə belə saxlanıla bilər.

**Hazırkı Məxfilik Siyasətinə dəyişikliklər**

Biz istənilən vaxt öz Siyasətimizi yeniləmək və ya dəyişdirmək hüququnu özümüzdə saxlayırıq və siz bu Məxfilik Siyasətini vaxtaşırı olaraq yoxlamalısınız. Bu səhifədə Məxfilik Siyasətinə hər hansı dəyişikliklər edildikdən sonra payneteasy.az istifadəni davam etdirməyiniz sizin həmin dəyişiklikləri təsdiqlədiyinizi və dəyişdirilmiş Məxfilik Siyasətinə riayət etməyə və onunla bağlı öhdəlik daşımağa razılaşdığınız.